*"Bizim hamımızı birləşdirən, həmrəy edən azərbaycançılıq ideyasıdır, azərbaycançılıqdır. Öz ürəyimdən gələn fikirləri bir daha bildirmək istəyirəm ki, hər bir insan üçün milli mənsubiyyəti onun qürur mənbəyidir. Həmişə fəxr etmişəm, bu gün də fəxr edirəm ki, mən azərbaycanlıyam!"*

**Heydər ƏLİYEV**



# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır | 30 dekabr 2015-ci il | № 99 (2015) | Qiyməti 25 qəpik

Dünya Azərbaycanlılarının Həmrəylik Günü və Yeni İl bayramı münasibətilə Silahlı Qüvvələrin şəxsi heyətinə

## Azərbaycan Respublikası Müdafiə nazirinin təbriki

Cənab zabitlər, gizirlər, miçmanlar, çavuşlar, əsgərlər və matroslar!

Sizi 31 Dekabr Dünya Azərbaycanlılarının Həmrəylik Günü və Yeni İl bayramı münasibətilə səmimi qəlbdən təbrik edir, hər birinizə ən xoş arzularımı bildirirəm.

Tarixə qovuşmaqda olan 2015-ci il xalqımızın və dövlətimizin, eləcə də Silahlı Qüvvələrimizin həyatında əlamətdar hadisələrlə zəngin olmuşdur.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin dünya azərbaycanlılarına müraciətində qeyd etdiyi kimi, hazırda davam edən qlobal maliyyə-iqtisadi böhrana baxmayaraq, hamımızın doğma Vətəni olan Azərbaycan Respublikasında 2015-ci ildə də sosial-iqtisadi artım dinamikası qorunub saxlanmış, müxtəlif sahələri əhatə edən dövlət proqramları və infrastruktur layihələri ardıcıl icra edilmişdir.

Silahlı Qüvvələrin Ali Baş Komandanının rəhbərliyi altında ordumuzun maddi-texniki təchizatı gündən-günə güclənərək ən yüksək səviyyəyə qalxmış, şəxsi heyətin sosial-məişət problemləri ardıcıl olaraq həllini tapmış, müasir silah və texnikaların alınması, yüksək ixtisaslı peşəkar kadrların hazırlanması işi uğurla davam etdirilmişdir.

İl ərzində 1000 nəfərdən çox hərbi qulluqçu xidməti, 500 nəfər hərbçi isə daimi mənzillə təmin olunub. Tam şəkildə komplektləşdirilmiş 10 hərbi şəhərcik, yeni təlim poliqonları, inzibati binalar istifadəyə verilmişdir. Bütün hərbi hissələrdə ən müasir tələblərə cavab verəcək yenidənqurma işləri daim davam etdirilir.

Komanda-qərargah hərbi oyunları, irimiqyaslı təlimlər ordumuzun güc və qüdrətini bir daha dünyaya nümayiş etdirməklə yanaşı, istər xidmətdə olan, istərsə də ehtiyatdan cəlb edilənlərin döyüş təcrübəsi qazanmasında mühüm rol oynamışdır.

Şəxsi heyətin böyük ruh yüksəkliyi, vətənpərvərlik hissi, döyüş və mənəvi-psixoloji hazırlığı imkan verir ki, Azərbaycan Ordusu Xankəndi, Şuşa, Laçın və işğal altında olan digər əzəli və əbədi torpaqlarımızı azad etsin, respublikamızın ərazi bütövlüyü təmin olunsun.

Azərbaycan-Ermənistan sərhədində və cəbhəboyu zonada hər gün atəşkəs rejimi pozulur. Mövqelərimiz intensiv olaraq atəşə tutulur, lakin Azərbaycan əsgəri Vətənin keşiyində ayıq-sayıq və mərdliklə dayanır. Düşmən layiqli cavab atəşləri ilə susdurulur, işğalçının planlaşdırdığı təxribatlar öncədən aşkarlanır, qabaqlayıcı tədbirlər nəticəsində düşmən canlı qüvvə və döyüş texnikası sarıdan xeyli itkilərə məruz qalır. Döyüşlərdə şəhid olanların qisası birə on qat alınır və bundan sonra da alınacaqdır.

Hərbi qulluqçularımızın xidmətləri ölkə rəhbərliyi tərəfindən həmişə yüksək qiymətləndirilir. Ordu ilə xalqın əlaqələri daha da möhkəmlənir, xalqımız ordusuna inanır, güvənir və arxalanır.

İnanıram ki, siz bu etimadı, inamı Vətənə, xalqa, dövlətə sədaqətli xidmətinizlə doğruldacaq, ölkəmizin təhlükəsizliyinin keşiyində, torpaqlarımızın müdafiəsi naminə Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Ali Baş Komandanı cənab İlham Əliyevin əmrlərinə hər an hazır olacaq və "Qarabağ torpağı erməni işğalçılarının ayağı altında od tutub yanacaqdır" şüarı ilə başlayacağımız yeni 2016-cı ildə xalqımızı qələbə müjdələri ilə sevindirəcəksiniz.

Bayramlar ərəfəsində şəhidlərimizin xatirəsini bir daha hörmət və ehtiramla yad edir, onların valideynlərini, ailə üzvlərini, Vətən uğrunda sağlamlığını itirən döyüşçülərimizi, müharibə və Silahlı Qüvvələr veteranlarını, eyni zamanda, hazırda düşmənlə təmas xəttində, döyüş növbəsində, qarovul xidmətində, xarici dövlətlərdə sülhməramlı qüvvələrin tərkibində xidmət edən şəxsi heyəti ürəkdən təbrik edir, möhkəm cansağlığı, xoşbəxtlik, ailə səadəti və xidmətdə uğurlar arzulayıram.

Arzu edirəm ki, 2016-cı il Qarabağın işğaldan azad ediləcəyi və qələbə ili kimi tarixə düşsün!

Hərbi anda sədaqətə, çətin, şərəfli hərbi xidmətdə fədakarlığa və böyük qələbəmizə inama görə hər birinizə minnətdarlığımı bildirirəm.

Bayramlarınız mübarək, Azərbaycan əsgəri!

**General-polkovnik**
**Zakir HƏSƏNOV**
**Azərbaycan Respublikasının**
**Müdafiə naziri**

# Vətənin keşiyində dayanmaq şərəfdir

***<u>Hələ yeniyetmə vaxtlarımda doğma ordumuz haqqında sənədli filmlərə, ekranlarda yayımlanan videoçarxlara böyük maraqla baxardım və düşünərdim ki, bir gün mən də əsgər olacağam. Böyüyüb boya-başa çatdığım rayon mərkəzində də hərbi hissə yerləşirdi. Həmişə buradan keçəndə əsgərlərin sıra addımlarının səsinə, marşların sədasına diqqət kəsilərdim. "Bircə vaxt tez gəlib çatsaydı, mən də onların sırasına qoşulardım", - deyərdim.</u>***

Ali Baş Komandan İlham ƏLİYEV:

*Bu gün Azərbaycan Ordusu öz üstünlüyünü göstərir. Bizdə olan vətənpərvərlik ruhu, döyüş qabiliyyəti, texniki imkanlar, əlbəttə ki, üstünlüyümüzü şərtləndirir. Azərbaycan Ordusunun arsenalında mövcud olan texnika, silah-sursat Dağlıq Qarabağda və Ermənistanda istənilən hədəfi yüksək dəqiqliklə məhv edə bilər.*



Bir gün hərbi xidmətə yollanmaq haqqında çağırış vərəqi aldım. Həmin gün sevincim yerə-göyə sığmadı. Qohum-qardaş da mənə gözaydınlığı verdi. Nəhayət, vaxt gəlib yetişdi və ordu sıralarına yola düşdüm. Biləndə ki, cəbhə xəttində xidmət edəcəyəm, qürurlandım ki, Vətənimi qoruyan oğullardan biri olacağam. Hərbi hissəmizin şərəfli döyüş yolu haqqında məlumatlı olanda isə sevincim daha da artdı, deməli, yerim qəhrəman döyüşçülərin davamçıları sırasında olacaq. Təlim müddətində çox şey öyrəndik, ən başlıcası, Vətənimizi qorumağın sirlərinə dərindən yiyələndik.

Gəlin, sizə ilk dəfə döyüş növbətçiliyinə getdiyim gündən danışım. Vətənpərvər komandirim Elnur Musayevə çox borcluyam, məhz onun tələbkarlığı sayəsində qısa vaxtda hazırlıqlı döyüşçü oldum. O, mənə döyüş növbətçiliyinin hər bir əsgər üçün ciddi bir sınaq, imtahan olduğunu izah etdi. Bildirdi ki, həmin vaxt sənə Vətənin qorunması kimi ən müqəddəs vəzifə etibar olunur. "Gərək o qədər ayıq-sayıq olasan ki, keşiyini çəkdiyin posta quş da qanad salmasın", - dedi komandirim. Sözün açığı, məni həyəcan bürümüşdü, axı bu həyatımda ilk ciddi sınaq idi. Nə isə, deyilən müddətdə döyüş növbəsini uğurla icra etdim və bununla da hər şey adiləşdi. Bütün çətinliklər arxada qaldı.

İndi hərbi xidmətdən tərxis olunmağıma sanılı günlər qalıb. Amma ordu həyatımın yaddaqalan hadisələrindən biri də "Azərbaycan Ordusu"nun əməkdaşına müsahibə verdiyim gün olacaq. Komandirimiz bizə deyəndə ki, Müdafiə Nazirliyindən hərbi jurnalist gəlib, çox sevindik. Axı neçə aylar dağlarda səngər ömrü yaşadığımız müddətdə söz-sənət adamları ilə görüşlərimiz yaddaşımızda xoş xatirəyə dönür. Hər bayramda bizim görüşümüzə gələnlər olur, ziyalılar, müharibə veteranları, hətta məktəblilər də bizimlə görüşə gəlirlər. Hər belə görüş bizim üçün dəyərlidir. Hətta bir dəfə qonşu postlarda xidmət edən əsgərlərin yanına Müdafiə naziri general-polkovnik Zakir Həsənov gəlmişdi. Komandirimiz deyirdi ki, nazir xidmətdə fərqlənən bir qrup döyüşçüyə qiymətli hədiyyələr təqdim edib. Hiss edəndə ki, xalq və dövlət, ordu rəhbəri hər addımda səni düşünür, onda daha da qürurlanırsan, Vətənin müdafiəsində canını belə əsirgəmirsən.

Hörmətli redaksiya, əgər məktubum qəzetdə dərc olunarsa, çox sevinərdim. Amma əməkdaşınız söz verdi ki, bu məktub yaxın nömrələrin birində işıq üzü görəcək. Hər halda diqqətinizə görə əvvəlcədən öz minnətdarlığımı bildirirəm. Və söz verirəm ki, Ali Baş Komandanımızın əmri ilə döyüşə atılan oğullardan biri də mən olacağam. Xalqımızı əmin edirəm ki, düşmən tezliklə ordumuzun qüdrəti qarşısında diz çökəcək.

**Əsgər**
**Əlimurad MURADOV,**
**"N" hərbi hissəsi**

*31 Dekabr Dünya Azərbaycanlılarının Həmrəylik Günüdür*

# Vahid azərbaycançılıq ideyasının işığında

***<u>Təqvimimizdə əlamətdar günlər arasında Dünya Azərbaycanlılarının Həmrəyliyi Gününün ayrıca yeri və önəmi var. Bu bayramı təkcə müstəqil dövlətimizin vətəndaşları deyil, dünyanın 70-dən artıq ölkəsinə səpələnmiş və könüllərində Vətən nisgili daşıyan 50 milyona yaxın soydaşımız ürək çırpıntısı ilə qeyd edir.</u>***

1989-cu ilin dekabr günlərində zaman-zaman qüdrətli dövlətlərin təsirilə parçalanmalara məruz qalmış Azərbaycan övladları Araz çayı boyunca sərhəd məftillərini doğrayaraq ədalətsizliyə etirazlarını bildirdilər. Ümummilli liderimiz Heydər Əliyevin başçılığı ilə Naxçıvan Muxtar Respublikasının Ali Məclisinin 1991-ci il 16 dekabr tarixli iclasında 31 dekabr Dünya Azərbaycanlılarının Həmrəylik Günü elan edildi. Sonra bu bayramın bütün ölkədə qeyd olunması üçün Azərbaycan Respublikasının Ali Soveti də qərar qəbul etdi.

Bu qərar dünya azərbaycanlıları arasında həmrəylik hissini daha da gücləndirdi və onları vahid bir məfkurə ətrafında birləşməyə ruhlandırdı. Azərbaycan Prezidenti Heydər Əliyevin sərəncamı ilə 2001-ci il noyabrın 10-da Bakı şəhərində Dünya azərbaycanlılarının I qurultayı keçirildi və burada 36 ölkədən gəlmiş 1105 nümayəndə, 906 qonaq iştirak edirdi. Qurultayda ümummilli liderimiz iftixar hissilə qeyd edirdi: "Bizim hamımızı birləşdirən, həmrəy edən azərbaycançılıq ideyasıdır, azərbaycançılıqdır. Öz ürəyimdən gələn fikirləri bir daha bildirmək istəyirəm ki, hər bir insan üçün milli mənsubiyyəti onun qürur mənbəyidir. Həmişə fəxr etmişəm, bu gün də fəxr edirəm ki, mən azərbaycanlıyam!"

Qurultay vahid, güclü və inkişaf etmiş Azərbaycana gedən yolun harada yaşamasından asılı olmayaraq, bütün azərbaycanlıların milli mənəvi birliyindən keçdiyinin bir həqiqət olduğunu nümayiş etdirdi. Bu tədbir dünyanın müxtəlif ölkələrində yaşayan soydaşlarımızın həmrəyliyinin formalaşması istiqamətində ilk addım oldu. Beləliklə, ulu öndər Heydər Əliyev dünya azərbaycanlılarını ilk dəfə bir araya gətirən böyük dövlət xadimi idi.

Azərbaycan dövləti Dünya azərbaycanlılarının I qurultayının tarixi qərarlarının əməli surətdə həyata keçirilməsi üçün bir sıra işlər gördü. O cümlədən, 2002-ci il iyulun 5-də Xarici Ölkələrdə Yaşayan Azərbaycanlılarla İş üzrə Dövlət Komitəsi yaradıldı.

Bu bayram dünyanın 70-dən çox ölkəsində yaşayan 50 milyondan artıq azərbaycanlılarla əlaqələr qurmaq, onlar arasında birlik və həmrəylik yaratmaq işində mühüm rol oynayır. İndi Dünya Azərbaycanlılarının Həmrəylik Gününü hətta milliyyətcə azərbaycanlı olmayıb, ancaq ölkəmizdə yaşayan insanlar da həvəs və məhəbbətlə qeyd edirlər.

Ulu öndər Heydər Əliyevin milli birlik və azərbaycançılıq ideyaları müasir dövrdə uğurla davam etdirilir.

Prezident İlham Əliyevin 8 fevral 2006-cı il tarixli sərəncamı ilə həmin il martın 16-da Bakı şəhərində Dünya azərbaycanlılarının II qurultayının keçirilməsi diaspor quruculuğu işinə və milli həmrəyliyimizin möhkəmlənməsinə güclü təkan verdi. Qurultayda Azərbaycan diasporunun hazırkı vəziyyəti müzakirə edildi, ayrı-ayrı təşkilatların fəaliyyətlərinin əlaqələndirilməsi işinin təkmilləşdirilməsi, ölkə həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılması ilə bağlı mühüm qərarlar qəbul edildi.

2011-ci il iyulun 5-də isə Bakıda Dünya azərbaycanlılarının III qurultayı keçirildi. Qurultay dünyanın müxtəlif ölkələrindən yüzlərlə həmvətənimizi Azərbaycan paytaxtında bir araya gətirdi.

Bu gün dünyanın dörd bir yanına səpələnmiş milyonlarla soydaşımızın vahid azərbaycançılıq ideyası ətrafında birləşmək əzmi gələcəyə nikbin baxmağa əsas verir. Diaspor təşkilatlarının hər birimizin tarixi Vətəni olan Azərbaycanla əlaqələri daha sıx xarakter daşıyır, soydaşlarımız yaşadıqları ölkələrdə milli maraqlarımızın müdafiəsi işində səmərəli fəaliyyət göstərirlər.

Prezident İlham Əliyev dekabrın 24-də Dünya azərbaycanlılarına ünvanladığı təbrik məktubunda sanki bunları nəzərə alaraq qeyd edir: "Bütün soydaşlarımızın azərbaycançılıq ideologiyası ətrafında sıx birləşərək mütəşəkkil qüvvəyə çevrilməsi məsələsinə xüsusi diqqət yetirən ümummilli lider Heydər Əliyev bu sahədə tarixi qərarlar qəbul etmiş, xaricdə məskunlaşmış həmvətənlərimizin hüquqlarının qorunmasına, diaspor quruculuğunun geniş vüsət almasına yönələn əhəmiyyətli tədbirlər həyata keçirmişdir. Aparılan məqsədyönlü siyasətin nəticəsi olaraq, bu gün diaspor təşkilatlarımız fəaliyyət göstərdikləri ölkələrdə Azərbaycan həqiqətlərinin təbliği, milli maraqlarımızın müdafiəsi və respublikamızın digər dövlətlərlə qarşılıqlı faydalı münasibətlərinin dərinləşməsi işinə öz töhfələrini verirlər".

Həmişə olduğu kimi, bu dəfə də dövlət başçısı dünya azərbaycanlılarına müraciətində bildirib ki, bundan sonra da səylərimizi birləşdirməli, işğal edilmiş ərazilərimizin azad edilməsi uğrunda ardıcıl və məqsədyönlü iş aparmalıyıq. “Bu sahədə diaspor təşkilatlarımızın da üzərinə mühüm vəzifələr düşür. Azərbaycanın suverenliyinin qorunması və ərazi bütövlüyünün təmin edilməsinə öz həmrəyliyimiz və birgə fəaliyyətimizlə sanballı töhfə vermək bizim başlıca amalımız olmalıdır".

**"Azərbaycan Ordusu"**

# Növbəti hərbi hissədə yeni yaşayış binalarının açılış mərasimi keçirilib





***Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin hərbi qulluqçuların mənzil və sosial-məişət şəraitlərinin yaxşılaşdırılması ilə əlaqədar müvafiq göstərişinə əsasən, növbəti hərbi şəhərciyin ərazisində yeni tikilən 2 yaşayış binasının açılış mərasimi olub.***

Yeni tikilən beşmərtəbəli, hər biri 3 otaqlı, ümumilikdə 100 mənzilli binalar kommunikasiya xətləri ilə təchiz olunaraq mərkəzləşdirilmiş istilik sisteminə qoşulub. Müasir standartlara cavab verən tam təmirli mənzillər mebel və lazımi avadanlıqla təchiz olunub. Ərazidə yarımstansiya, su anbarı tikilib, binaların ətrafına asfalt döşənib. Hasara alınmış yaşayış kompleksinin həyətində yaşıllaşdırma və abadlıq işləri görülüb, sakinlərin səmərəli istirahəti üçün lazımi şərait yaradılıb.

Xidməti mənzillərin açarlarının təqdimetmə mərasimində hərbi qulluqçular və onların ailə üzvləri qarşısında çıxış edən Müdafiə naziri general-polkovnik Zakir Həsənov ölkə başçısı və nazirliyin rəhbərliyi adından tədbir iştirakçılarını təbrik edib.

Sonra Müdafiə Nazirliyinin rəhbərliyi, komandanlıq heyəti və hərbi qulluqçuların ailə üzvləri ərazidə ağac və gül kolları əkiblər.

Mərasim iştirakçıları yaradılan şəraitdən məmnun qaldıqlarını və göstərilən qayğıya görə Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevə minnətdarlıqlarını bildiriblər.

Yeni mənzillərin açarları hərbi qulluqçulara təqdim edildikdən sonra Müdafiə naziri general-polkovnik Zakir Həsənov yaradılan şəraitlə tanış olub, ailələrin qayğıları ilə maraqlanıb və çay süfrəsi ətrafında söhbət edib.

Həmin gün Müdafiə naziri hərbi hissə yaxınlığında tikintisi davam etdirilən təlim mərkəzi və atış poliqonunda da olub, inşaat işlərinin gedişatını yoxlayıb, lazımi göstəriş və tövsiyələrini verib.

**Müdafiə Nazirliyi Mətbuat Xidməti**

# Müdafiə naziri zabit ixtisas kursunun məzunları ilə görüşüb

***Azərbaycan Respublikasının Müdafiə naziri general-polkovnik Zakir Həsənov Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzinin zabit ixtisas kursunu bitirən dinləyicilərin buraxılış mərasimində iştirak edib.***





Gənc zabitlərin iştirakı ilə keçirilən tədbirdə əvvəlcə ümummilli liderimiz Heydər Əliyevin və ölkəmizin ərazi bütövlüyü uğrunda şəhid olanların ruhu bir dəqiqəlik sükutla yad edilib. Dövlət himni səsləndirilib.

Şəxsi heyət qarşısında çıxış edən Müdafiə naziri buraxılış münasibətilə məzunları təbrik edərək Ali Baş Komandanın tapşırığına əsasən, ordunun döyüş qabiliyyətinin daha da yüksəldilməsi istiqamətində aparılan fəaliyyətlərdən, hərbi təhsil sistemində həyata keçirilən vacib tədbirlərdən, Silahlı Qüvvələrin şəxsi heyətinin döyüş, texniki və mənəvi-psixoloji hazırlığında qarşıda dayanan mühüm vəzifələrdən danışıb.

Ümummilli lider Heydər Əliyevin Azərbaycanın hərbi ənənələrinin qorunmasına önəm verərək gənclərimizin hərb işinə marağının artırılmasına diqqət çəkən nazir Silahlı Qüvvələrin sıralarına daxil olan zabitlərin Vətənimizin müdafiə qabiliyyətinin möhkəmlənməsinə dəyərli töhfə verəcəklərini xüsusi vurğulayıb.

Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin göstərdiyi qayğı nəticəsində ordumuzun daha da inkişaf etdiyini diqqətə çatdıran general-polkovnik Zakir Həsənov bildirib: "Silahlı Qüvvələrimiz qarşısında Dağlıq Qarabağ və digər ərazilərin düşmən işğalından azad olunması kimi mühüm vəzifə dayanır. Düşmən anlamalıdır ki, müvəqqəti olaraq onun nəzarəti altında qalan əzəli torpaqlarımızın azad edilməsinin zamanı artıq çatıb. Dövlətimizin və xalqımızın dəstəyi ilə ordumuz ən müasir silah-sursat, döyüş texnikası, hərbi təyinatlı müxtəlif avadanlıq və vasitələrlə silahlanıb. Dövlətə, xalqa sədaqətlə xidmət edən şəxsi heyətin vətənpərvərliyi, nizam-intizamı, biliyi, bacarığı, yüksək peşəkarlığı və mənəvi dəyərlərə bağlılığı qarşımızda duran istənilən hərbi vəzifənin qısa müddətdə və uğurla yerinə yetirilməsinin əsas vacib şərtlərindəndir".

Müdafiə naziri birmənalı şəkildə vurğulayıb ki, işğalçının tam darmadağın edilərək torpaqlarımızdan çıxarılmasının məsuliyyəti Silahlı Qüvvələrin şəxsi heyətinin üzərinə düşür. "Cəbhədə təşəbbüs bizim tərəfimizdədir. Azərbaycan əsgərinin döyüş hazırlığı, silahının gücü, sərrast atəşi, dəqiq zərbəsi nəticəsində düşmən il ərzində xeyli sayda itki verib, ağır təlafata uğrayıb.

Düşmən vahimə içindədir, qorxub qaçır, gizlənməyə yer axtarır. Hərbi təlimlərdə və döyüş şəraitində təcrübə toplamış əsgərimiz qarşısında isə yeganə döyüş tapşırığı - düşməni hər yerdə izləmək, onun yerini müəyyən edib tapmaq və məhv etmək dayanır. Azərbaycanın real hərbi qüvvəsi artıq buna imkan verir", - deyə nazir bildirib.

Çıxışına zabitlərə müraciətlə davam edən Müdafiə naziri qeyd edib ki, Azərbaycan Ordusunun hər bir zabiti təşəbbüskar olmaqla öz hərbi kollektivinə şəxsi nümunə göstərməlidir.

"Tabeliyinizdəki əsgərləri Vətənimizə, dövlətimizə sadiq ruhda, düşmənə nifrət hissi ilə tərbiyə etməli, nümunəvi xidmətə həvəsləndirməlisiniz. Əsgərlərimiz müasir silah və texnikanı yüksək səviyyədə bilməli, onu idarə etməyi bacarmalı, ən ülvi mənəvi dəyərlər ruhunda tərbiyə olunaraq yalnız düşmən üzərində qələbə uğrunda mübarizəyə hər zaman hazır olmalıdırlar", - deyə general-polkovnik Zakir Həsənov vurğulayıb.

Sonda Müdafiə naziri hərbi hissələrə yola düşməyə hazırlaşan gənc zabitlərə Azərbaycanın gələcəyi, ordumuzun, dövlətçiliyimizin müdafiə qüdrətinin daha da yüksəldilməsi naminə xidmətlərində möhkəm, mətin və cəsarətli olmalarını arzulayıb.

**Müdafiə Nazirliyi Mətbuat Xidməti**

# Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatı

## KİV nümayəndələrinə akkreditə kartları təqdim olunub

Müdafiə Nazirliyində akkreditə olunmuş kütləvi informasiya vasitələri nümayəndələrinin bir qrupuna dekabrın 26-da akkreditə kartlarının təqdim olunması mərasimi keçirilib.

İlkin mərhələdə 10 KİV-dən təqdim edilən sənədlər müvafiq prosedurdan keçdikdən sonra 40-dan artıq media nümayəndəsi üçün akkreditə kartları hazırlanıb.

Tədbirdə Müdafiə nazirinin şəxsi heyət üzrə müavini - Şəxsi Heyət Baş İdarəsinin rəisi general-leytenant Kərim Vəliyev akkreditə olunmuş KİV nümayəndələrinə kartları təqdim edib.

Qeyd edək ki, akkreditə olunma "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Ermənistan Respublikası Silahlı Qüvvələri ilə təmas xəttində bəzi təhlükəsizlik tədbirləri haqqında" Azərbaycan Respublikası Prezidentinin 24 sentyabr 2014-cü il tarixli 742 nömrəli sərəncamının icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabinetinin 14 avqust 2015-ci il tarixli 279 nömrəli qərarı ilə təsdiq edilmiş "Jurnalistlərin cəbhəboyu zonada akkreditasiyası və cəbhəboyu zonaya xidməti ezamiyyətlərinin Azərbaycan Respublikasının Müdafiə Nazirliyi ilə razılaşdırılması Qaydası"na əsasən həyata keçirilib.

## Ermənistan silahlı birləşmələri atəşkəs rejimini pozub

*29 dekabr 2015-ci il.*

Müdafiə Nazirliyi bildirir ki, erməni silahlı bölmələri cəbhənin müxtəlif istiqamətlərində sutka ərzində atəşkəs rejimini ümumilikdə 117 dəfə pozub.

Ermənistan Respublikası İcevan rayonunun Paravakar, Berkaber kəndlərində və adsız yüksəkliklərdə yerləşən mövqelərdən Ağstafa rayonunun Köhnəqışlaq kəndində, Qazax rayonunun Qızılhacılı kəndində və adsız yüksəkliklərdə, Berd rayonunun Mosesqex kəndində yerləşən mövqelərdən Tovuz rayonunun Əlibəyli kəndində, Krasnoselsk rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Gədəbəy rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərimiz atəşə tutulub.

Goranboy rayonunun Talış, Gülüstan, Tərtər rayonunun Göyarx, Çaylı, Çiləbürt, Yarımca, Ağdam rayonunun Şıxlar, Novruzlu, Cəvahirli, Kəngərli, Sarıcalı, Şuraabad, Yusifcanlı, Nəmirli, Xocavənd rayonunun Kuropatkino, Füzuli rayonunun Horadiz, Qaraxanbəyli, Qorqan, Aşağı Seyidəhmədli, Aşağı Əbdürrəhmanlı, Cəbrayıl rayonunun Mehdili kəndləri yaxınlığında, həmçinin, Göygöl, Goranboy, Xocavənd, Füzuli və Cəbrayıl rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də Silahlı Qüvvələrimizin mövqeləri atəşə tutulub.

Azərbaycan Silahlı Qüvvələri əməliyyat şəraitini nəzərə alaraq, düşmənin atəş nöqtələrinə, mövqelərinə və səngərlərinə 120 dəfə atəş zərbəsi endirib.

*Ön xətdən reportaj*

# Vətənin igid müdafiəçiləri

***Vətəni qorumaq, onun yolunda canını, qanını əsirgəməmək düşmənlə üzbəüz səngərlərdə dayanan mərd oğulların ən böyük amalıdır. "N" hərbi hissəsinin şəxsi heyəti də sələflərinin qəhrəmanlıq ənənələrini ləyaqətlə davam etdirməyi qarşısına məqsəd qoyub.***



Zabit Sahib Şahverdiyevlə söhbətimizə bu hisslər körpü salır. Təcrübəli zabit ölkəmizdə həyata keçirilən genişmiqyaslı quruculuq işlərinə, mədəni-kütləvi tədbirlərə, gənclərin hərbi vətənpərvərlik tərbiyəsi istiqamətində görülən əməli işlərə diqqət yetirir. Bildirir ki, Prezident, Ali Baş Komandan İlham Əliyevin həyata keçirdiyi uğurlu siyasət ölkəmizin hərtərəfli inkişafına, Silahlı Qüvvələrimizin daha da möhkəmləndirilməsinə geniş imkanlar yaradıb. Ötən illərlə müqayisədə ordumuzun qüdrəti, döyüş qabiliyyəti xeyli artıb. Şəxsi heyət dövlət rəhbərliyinin diqqət və qayğısından ruhlanaraq qarşıya qoyulan döyüş tapşırıqlarını uğurla həyata keçirir. Müdafiə Nazirliyi tərəfindən təsdiq edilmiş döyüş hazırlığı planına əsasən keçirilən məşğələlər, təlimlər hərbi qulluqçuların döyüş vərdişlərinin yüksəldilməsinə xidmət edir.

Son vaxtlar düşmən tərəfindən atəşkəsin tez-tez pozulması qoşunların təmas xəttində gərginliyi artırır. Sərhəd kəndləri müxtəlif atıcı silahlardan atəşlərə məruz qalır. Vətən keşiyində sayıq dayanan igid oğullar isə yağıların layiqli cavablarını verirlər. Məqsədimiz budur ki, tezliklə işğalda qalan torpaqlarımızı azad edək. Bu istiqamətdə ölkə rəhbərliyi tərəfindən məqsədyönlü iş aparılır. "Əgər danışıqlar yolu ilə problem həll edilməsə ordumuzun gücü ilə torpaqlarımızı azad edəcəyik", - deyən Ali Baş Komandanımızın əmrini yerinə yetirməyə hazırıq.

Səngər həyatı yaşayan oğullarla görüşmək üçün ön xəttə yollanırıq. Soyuqlu, şaxtalı hava olsa da, qədim yurd yerlərimizin sakinləri iş-gücləri ilə məşğuldurlar.

Həmsöhbət olduğum kəndin ağsaqqalı Səfər kişi bildirir ki, yaşadıqları kənd düşməndən mərdliklə qorunur. "Heç kim doğma ocağını tərk etmək fikrində deyil. Ordumuz ötən illərlə müqayisədə çox güclənib. El-obamız indi özünü daha arxalı hesab edir. Bütün görülən böyük işlərə görə dövlətimizin və Müdafiə Nazirliyinin rəhbərliyinə dərin minnətdarlığımızı bildiririk. Ordu ilə xalqın birliyi böyük qələbənin təminatı deməkdir. İnanırıq ki, tezliklə torpaqlarımız düşmənlərdən azad olunacaq", - deyir kənd sakini.

Taborda ilk həmsöhbətim polkovnik-leytenant Yaşar Abbasov oldu. O, ömürlük taleyini ordu həyatı ilə bağlayan təcrübəli zabitlərdəndir. Komandiri olduğu şəxsi heyət döyüş tapşırıqlarına müntəzəm əməl edir. Məhz onların qətiyyəti sayəsində düşmənlə sərhəd ərazilərimiz göz bəbəyi kimi qorunur.

Mayor Etibar Namazov bildirir ki, igid Vətən müdafiəçilərinin döyüş ruhu çox yüksəkdir. Onun sözlərinə görə, ordu rəhbərliyinin cəbhə bölgələrinə səfərləri, göstərilən diqqət və qayğı hər birimizin məsuliyyət hissini daha da artırır.

"İctimai-siyasi hazırlıq məşğələlərində əsgərlər fəal iştirak edirlər. Onlar ölkəmizin dövlətçilik, hərb tarixinə böyük maraq göstərirlər. Tarixi, əlamətdar günlər həmişə təntənə ilə qeyd olunur. Belə tədbirlərin keçirilməsi artıq ənənə halını alıb", - deyə zabit vurğulayır.

Əsgərlərin istirahət guşəsində Azərbaycanın Milli Qəhrəmanı Mübariz İbrahimovun həyat və döyüş yolunu əks etdirən güşə ilə qarşılaşıram. Qəhrəmanın ömür və döyüş yolu şəxsi heyəti ata-babalarımızın qəhrəmanlıq yolunu davam etdirməyə ruhlandırır.

Budur, səngər həyatı yaşayan igidlərlə bir sıradayıq. Bölik komandiri zabit Şair Niyazov hərbi hissədə vətənpərvər, nizam-intizamlı, fədakar bir zabit kimi tanınır.

- Burada xidmət edən hər kəs yaxşı bilir ki, səngərin gecəsi-gündüzü olmur, - deyir zabit. - Biz öhdəmizə düşən müqəddəs vəzifəmizi yerinə yetirməyə borcluyuq. Hərbçi peşəsi qürurverici, xalqa, Vətənə ucalıq gətirən peşədir. Fərəh duyuram ki, Vətənimizin keşiyində dayananlar arasında mən də varam.

Döyüş növbətçiliyi çəkən əsgər Rail Abbasov qısa vaxtda intizamlı döyüşçü kimi formalaşıb. Cəsarətli, qorxmaz, vətənpərvər olduğu üçün bu yaxınlarda komandanlıq tərəfindən ailələrinə təşəkkür məktubu ünvanlanıb. Rail ordu həyatının əsl həyat məktəbi olduğunu və bacarıqlı döyüşçü kimi formalaşdığını inamla söyləyir:

- Ordu həyatında mərdlik, dözümlülük öyrəndim, - deyir əsgər. - Mükəmməl atıcılıq vərdişlərinə, müxtəlif silahlardan istifadə qaydalarına alışmışam. Bir həqiqətə inanıram ki, hər şeydən öncə yenə Vətəndir.

Qəbələ rayonundan olan Babək Əhmədov, Masallıdan Təbriz Abbasov, Qaradağdan Rahil Abbasov və başqaları da döyüş növbəsində mərdliklə dayandıqlarını, Vətəni qorumağın sirlərinə dərindən yiyələndiklərini qeyd edirlər. Bir daha inanırsan ki, dağlar qoynunda qərar tutan oğulların hər biri Vətənin igid müdafiəçisidir.

**Mübariz MUSAYEV, "Azərbaycan Ordusu"**

*Təlim*

# "Bütün sahələrdə düşməndən üstünük"





***Cəbhə bölgəsində yerləşən hərbi hissəyə günortadan sonra çatdıq. Nəzarət-buraxılış məntəqəsindən əraziyə daxil olanda şəxsi heyətin təlim keçdiyini gördük. Əsgərlər komandirin əmr və tapşırıqlarını cəld hərəkətlərlə yerinə yetirirdilər. Onların eyni vaxtda ritmik hərəkətləri kənardan baxana zövq verirdi.***

- Hərbi vətənpərvərlik mövzusunda keçirilən tədbirdən yenicə qayıtmışıq, - deyə polkovnik-leytenant Rəşad Salmanov bizimlə söhbətinə başladı.

- Kəşfiyyatçı əsgərlərimiz bu möhtəşəm tədbirdə bacarıqlarını nümayiş etdirdilər. Onların göstərdikləri əlbəyaxa döyüş növləri iştirakçılar tərəfindən alqışlarla qarşılandı. Kəşfiyyatçı olmaq həm şərəfli, həm də məsuliyyətlidir. Düzdür, məsuliyyətli olmaq bütün sahələrdə tələb olunan mənəvi bir keyfiyyətdir. Kəşfiyyatçı isə mən deyərdim ki, ikiqat məsuliyyətli olmalıdır. Hərbi hissəmizin bütün əsgərlərində kəşfiyyatçılara məxsus olan müsbət keyfiyyətlər var. Onlar həm dözümlü, həm iradəli, həm bacarıqlı, həm də cəsarətlidirlər. Bu keyfiyyətlərə sahib olan insanlar qarşılarında dayanan bütün çətinlikləri dəf etməyə qadir olurlar. Kəşfiyyatçı əsgərlərimizin hazırlığından razıyam.

Şəxsi heyətə məşğələ keçən zabitlə tanış oluram. Öyrənirəm ki, kapitan Seyran Orucov 2007-ci ildən bu hərbi hissədə xidmət edir. Bir bölmə komandiri kimi vəzifəsinin öhdəsindən bacarıqla gəlir. Kəşfiyyatçı əsgərlərə hərbi bilik və döyüş vərdişlərini həvəslə aşılayır. Çalışır ki, tabeliyindəki əsgərlər hər bir tapşırığı peşəkarcasına yerinə yetirsinlər.

- Son günlər erməni işğalçıları atəşkəs rejimini tez-tez pozmağa cəhd göstərirlər, - deyir kapitan. - Cəsur əsgərlərimiz düşmənin bütün hücumlarının qarşısını qətiyyətlə alırlar. Qısa atışmalar zamanı düşmənə sarsıdıcı zərbələr vururuq. Ermənilər qarşımızda duruş gətirə bilmir, itkiyə məruz qalaraq geri çəkilməli olurlar. Biz bütün sahələrdə düşməndən üstünük.

Söhbətimizi tamamladıqdan sonra kəşfiyyatçıların məşğələsini izləyirik. Budur, əsgərlər kapitan Seyran Orucovun tapşırıqlarını yerinə yetirərək müxtəlif manevrlər edirlər. Dəstə ilə irəli atılıb "düşməni" məhv edib geri çəkilirlər. Komandirin növbəti əmrləri eşidildikcə, əsgərlər növbəti addımlarını atırlar. Kəşfiyyatçıların üzgözündən cəsarət və hünər yağır. Hiss edirsən ki, onlar hər dəqiqə düşməni məhv etməyə hazırdırlar.

Məşğələni izlədikdən sonra yenə də kapitanla söhbətimizi davam etdiririk. Zabit nümunəvi kəşfiyyatçılardan söz açdı. Bildirdi ki, bölükdəki əsgərlərin hamısı bacarıqlıdır. Onlardan İlyas Nəsirov, Nizami İmanov, İlkin Abbasov, Vüsal Paşazadə, Tale Qarayev, Tural Yunisli, Ruslan Fərzəlizadə, Fuad Süleymanov, Ceyhun Abbasov, Asim Əliyev və başqaları həm dərs və məşğələlərdə, həm də təlimlərdə fəallıq göstərirlər.

Kəşfiyyatçılarla görüşümüz başa çatır. Məşğələ isə davam edir. Təcrübə və səriştəsini artırmaq qarşısına məqsəd qoyan şəxsi heyət yorulmaq bilmədən məşq edir. Kapitanın gur səsi meydanda əks-səda verir. Əsgərlər əmrə uyğun olaraq cəld hərəkətlərlə sağa-sola dönür və qəflətən irəli sıçrayırlar. Onların nəzərləri daim irəli dikilib. Hiss edirsən ki, hər biri qələbə əzmindədir. Belə əhval-ruhiyyədə olan döyüşçülərimizin qələbəsi isə mütləqdir.

**Mayor
Vahid MƏHƏRRƏMOV,
"Azərbaycan Ordusu"**

# "Vətənimi qoruyanlardan biriyəm..."



***Hər dəfə ezamiyyətdə olarkən vətənpərvər zabit və əsgərlərlə görüşür, fərqli insanlarla tanış oluruq. Bu dəfə də komandanlığın etimadını qazanmış baş leytenant Təbriz Pirimovu tanıdıq.***

Gənc zabit 2004-2007-ci illərdə C.Naxçıvanski adına Hərbi Liseydə təhsil alıb, sonra ali hərbi təhsilini uğurla başa vuraraq zabit kimi ordu sıralarına göndərilib.

- Müharibə gedən dövrü xatırlaya bilmirəm. Sonra yaşa doldum. Məktəbdə, evdə düşmənimizin, torpaqlarımızı işğal edənin ermənilər olduğunu öyrəndim. Günlər həftələri, həftələr ayları əvəz etdikcə böyüyürdüm. Özümü dərk etdikcə düşmənə nifrətim daha da artırdı. İşğalda olan torpaqlarımızı azad etmək üçün hər kəs vətəndaşlıq borcunu yerinə yetirməlidir. Artıq qərarımı verdim. Hərbçi olmaq istəyirdim. Əlimə silah alıb Vətənimin bütövlüyünə qəsd edənləri cəzalandıracaqdım. İllər ötdü və mən indi hərbçiyəm. Vətənimi ön xətdə, düşmənlə üz-üzə qoruyuram, - deyən gənc zabit Təbriz Pirimov hər zaman ədalətli insan, təcrübəli komandir olmağa çalışdığını qeyd etdi. Onun sözlərinə görə, mənəvi keyfiyyətləri yüksək olan insan ədalətli, təlim görmüş hərbçi isə təcrübəli olur.

Təcrübəli komandir yaradılan şəraitdən, orduya göstərilən diqqət və qayğıdan da söz açmağı unutmadı.

- Vətən sərhəddən başlanır. Sərhədlərimiz isə paytaxtdan xeyli uzaqdadır. Amma baxın, nə gözəl şərait yaradılıb bizlər üçün. Sosial-məişət şəraitimiz, maddi-texniki təminatımız yüksək səviyyədədir. Ölkə başçısına, Müdafiə Nazirliyinin rəhbərliyinə bizə göstərdikləri diqqət və qayğıya görə minnətdarıq.

Baş leytenant Təbriz Pirimov "Ali Baş Komandan əmr verəcəyi gün düşməni məhv etmək üçün savaşa atılmağa hazıram", - dedi.

**Baş leytenant
Ceyhun CƏFƏRLİ,
"Azərbaycan Ordusu"**

*Tibb xidməti*

# Döyüşçülərin sağlamlığı önəmlidir

***Ordunun döyüş qabiliyyəti digər vacib amillərlə yanaşı, hərbi tibb müəssisələrinin fəaliyyətindən də çox asılıdır. Əgər zabit və əsgərlərimizin sağlamlığı ağ xalatlı "keşikçilər" tərəfindən möhkəm qorunarsa, şəfa ocağına üz tutmuş döyüşçü keyfiyyətli müalicə edilib tez bir zamanda öz hərbi hissəsinə qaytarılarsa, o zaman xidmət də qaydasında gedər, hərbi bölmələrimiz verilən döyüş tapşırığını vaxtında yerinə yetirməyə qadir olar.***



Biz hospitala gələndə hələ dan yeri təzəcə sökülürdü. Mülayim, təmiz hava adamın ovqatını oxşayırdı. Səhərin erkən vaxtlarından hərbi hissələrdə olduğu kimi, burada da xidmət başlanmışdı. Tibb ocağının həyətində, palata və kabinetlərində işgüzar mühit vardı. Həkim və tibb bacıları xəstələrə baş çəkir, onlara qayğıyla yanaşır, bir sözlə, hər kəs öz vəzifə borcunu məsuliyyətlə yerinə yetirirdi.

Zabit Ceyhun Əliyevlə əvvəllər də burada görüşüb tanış olmuşduq. İlk təəssüratdan intizamlı, işini bilən, bacarıqlı zabit barəsində məndə xoş rəy formalaşmışdı. O, hospitalda hər şeyin qaydasında olduğunu və fövqəladə bir hadisənin baş vermədiyini söylədi.

- Növbədə olduğum müddət ərzində xəstələrin vəziyyəti sabit olub, - bizimlə söhbətində növbətçi həkim kapitan Mahir Əzizov bildirdi. - Müalicə tədbirləri təyinatı üzrə davam etdirilib. Ötən gün ərzində bir neçə xəstə hospitala qəbul edilib, dərhal müayinədən keçirilib və stasionar müalicə üçün bölmələrə yerləşdirilib.

Hər şeydən əvvəl onu qeyd etməyə dəyər ki, bu hərbi tibb müəssisəsi Qarabağ müharibəsi dövründə yaradılıb və formalaşıb. O zaman cəbhədən gətirilən yaralıların ardı-arası kəsilmirdi və həkimlər gecə-gündüz demədən Vətən oğullarının həyata qaytarılması üçün bilik və bacarıqlarını əsirgəmirdilər. Statistika aparılmasa da, tam əminliklə demək olar ki, həmin qanlı-qadalı illərdə hərbi şəfa ocağında minlərlə insan sağlamlığına qovuşaraq xidmətini davam etdirmək üçün hərbi hissələrinə qayıdıb.

O vaxtdan bu günə qədər hospitalda çox şey dəyişib. Müharibə illərindən fərqli olaraq hospitalın həkim və tibb personalı sakit iş rejimində öz fəaliyyətini davam etdirir. Dövlətin ordumuza göstərdiyi böyük qayğı hərbi tibb ocağının fəaliyyətində də öz əksini tapıb. Müayinə və müalicəni yüksək səviyyədə təşkil etmək üçün müasir avadanlıqlar alınıb, həkim və mütəxəssislərin ixtisas hazırlığının artırılmasına ciddi önəm verilir. Müasir laboratoriya şəraitində aparılan dəqiq analizlər xəstələrin düzgün müalicə edilməsinə imkan verir. Hazırda tibb kollektivi ən çətin cərrahi əməliyyatları aparmaq imkanına malikdir.

Hərbi tibb ocağı olduğundan müharibə şəraitində vacib olan təcrübənin qazanılaraq möhkəmləndirilməsi üçün burada da tədbirlər görülür. Ötən ay hospitalın şəxsi heyətinin iştirakı ilə taktiki təlim keçirilib. Səyyar tibb qrupunun çöl şəraitində yerləşdirilməsi, yaralı və xəstələrin qəbuluna hazır olması vərdişləri məşq edilib. Sevindirici haldır ki, hospitalın tibb heyəti təlim zamanı özünü yaxşı tərəfdən göstərib və üzərlərinə düşən vəzifələri bacarıqla yerinə yetirib.

- Hərbi tibb ocağında işlər, gördüyünüz kimi, öz qaydasında davam edir, - bizimlə söhbətində zabit Elçin Abdullayev dedi. - Burada bacarıqlı, gənc həkim kollektivi formalaşıb. Bütün tibb personalı öz vəzifəsinə yetərincə ciddi yanaşır. Müəssisəyə qəbul edilən xəstələrin müayinə və müalicəsi üçün əlimizdən gələni əsirgəmirik.

Hospitalda öyrəndik ki, hazırda buraya əsasən, mövsümi xəstəliklərlə əlaqədar sağlamlığında qismən problem yaranmış hərbi qulluqçular müraciət edirlər.

Təcrübəli tibb mütəxəssisləri, həmçinin, ön mövqelərdə xidmət aparan hərbi hissə və bölmələrdə tibb xidmətinin lazımi səviyyədə təşkil edilməsinə kömək göstərirlər. Onlar müntəzəm olaraq ön xətdəki bölmələrə ezam olunur, orada profilaktiki tədbirlərin nümunəvi təşkilinə yardımçı olurlar.

Təbii ki, xəstələrin səmərəli müalicəsi ilk növbədə burada çalışan həkim və tibb personalının peşəkarlığından asılıdır. Bunun üçün hərbi qulluqçuların sağlamlığı keşiyində dayanmış insanların ixtisaslarına mükəmməl yiyələnmələri bir zərurətdir. Xoşdur ki, Silahlı Qüvvələrimizin bütün tibb ocaqlarında olduğu kimi, burada da həkimlərin bilik və təcrübəsini artırmaq üçün mütəmadi tədbirlər görülür. Vaxtaşırı onlar ixtisasartırma kurslarına göndərilir, təbabətin müasir nailiyyətlərilə yaxından tanış olur, ən yeni tibbi avadanlıqlarda işləmək təcrübəsi qazanırlar. Öz peşələrinə mükəmməl yiyələnmək üçün hazırda hospitalın 4 həkimi Almaniya və Türkiyədə tibbi kurslarda iştirak edir. Qeyd etməyə dəyər ki, həmin həkimlər hərbi tibb müəssisəsi üçün yetərincə zəruri ixtisas sahibidirlər. Onların üçü cərrah, biri isə rentgenoloqdur.

Hospitalın bacarıqlı həkimlərindən cərrah mayor Samir Hüseynovu, reanimatoloq, kapitan Elşən Hacıyevi, infeksionist, kapitan Kamran Məlikovu, tibb personalından cərrahiyyə bölməsinin baş tibb bacısı baş çavuş Səyyarə Baxışovanı, tibb bacıları Gülnarə Məmmədovanı, Dürdanə Rəhimovanı, Məlahət Əliyevanı, feldşerlər gizir Vüqar Bayramovu, gizir İsmayıl Nəsirovu və başqalarını nümunə göstərmək olar.

Hospitalda gördüklərim zabit və əsgərlərimizin sağlamlığı keşiyində dayanmış şəfalı əllərin sahiblərinə hörmət və ehtiramımı daha da artırdı. Buraya üz tutanlar əmin ola bilərlər ki, qayğıkeş və bacarıqlı kollektivin qayğısı ilə əhatə ediləcəklər...

**Əbülfət QASIMOV,
"Azərbaycan Ordusu"**

*Ordu və cəmiyyət*

# Qələbəmizə inanıram

Elə bir qələm sahibi tapılmaz ki, o, qoynunda boya-başa çatdığı müqəddəs torpağını, Vətənini tərənnüm etməsin. Qəhrəmanlarımız Cavanşirlər, Koroğlular, Babəklər yurdu olan Azərbaycanın hər qarış torpağı hamımız üçün əziz və müqəddəsdir.

İnsan mənəviyyatını zənginləşdirən əxlaqi prinsiplərdən biri də Vətən sevgisidir. Nahaq yerə "ana Vətən" ifadəsi işlədilmir. Vətən ana qədər sevilməli və qorunmalıdır. İnsanı ucaldan, dəyərini artıran Vətən sevgisidir. Ulularımızın qəhrəmanlıqları, igidlikləri həm tariximizdə, həm milli adət-ənənələrimizdə, həm də ədəbiyyatımızda dərin izlər qoyub. Tarixi qəhrəmanlarımız, onların hünərini vəsf edən nəğmələr, dastanlar əsrlər boyu gənc nəslin maraq dairəsində olub.

Vətən sadəcə müəyyən sərhədləri olan coğrafi bir məkan deyil. Vətən xüsusi sevgi və hörmətə layiq müqəddəs torpaqdır. Vətən sevgisi hamımızın qəlbini riqqətə gətirir. Bir insanın millətini, Vətənini sevməsi, onun dilini, əxlaqını və tarixini sevməsi deməkdir. Millət üçün Vətən, sadəcə üzərində yaşadığı düzənlik, dağ, meşə və axar sular deyil. Hər bir vətəndaş Vətəni uğrunda döyüşə, vuruşa həmişə hazır olmalıdır. Dahilər "Vətən sevgisi imandandır" - deyiblər. Vətən itirilərsə, imanın da əldən getməsi qaçılmazdır. Vətənə sevgi və hörmət, torpağa bağlılıq insanda hələ kiçik yaşlarından formalaşır. Deyirlər ki, Vətən sərhəddən başlanır. Amma mənə elə gəlir ki, Vətən hər kəsin ürəyindən, qəlbindən başlanır. Ürəkdən başlanan sevgi isə heç vaxt bitib tükənmir. Biz Vətənimizi bu gün xidmətdə olan zabit və əsgərlərimiz kimi göz bəbəyimiz kimi qorumalıyıq. Onlardan nümunə götürməliyik.

Bu gün ürəyi Vətən eşqi ilə döyünən oğullar əldə silah torpaqlarımızın keşiyində dayanırlar. Ordumuzun gücü, qüdrəti getdikcə artır. Artıq düşmən zəifliyini, məhvə düçar olduğunu hər addımda hiss edir. Ordumuzun artan gücünü, qüdrətini görən hər bir vətəndaşımız bununla sevinir, qürur duyur. Bir vətəndaş, bir ana kimi mən də ordumuzla fəxr edirəm. Bu gün hamı bir nəfər kimi orduya diqqət və qayğı göstərməlidir. Həmişə onun yanında olmalıdır. Qarabağ uğrunda döyüşlər başlayarsa, inanıram ki, hamı bir nəfər kimi könüllü olaraq yurdumuzun müdafiəsinə qalxacaqdır. Düşmən üzərində qələbə naminə hər birimiz əlimizdən gələni etməliyik. Mən ordumuzun qələbəsinə inanıram.

**Mayisə ƏSƏDULLAQIZI,
Azərbaycan Yazıçılar və
Jurnalistlər Birliyinin üzvü**

# Xəbərlər: hadisələr, faktlar

## Çində ilk dəfə antiterror haqqında qanun qəbul olunub



Çin Xalq Respublikasında ilk dəfə antiterror haqqında qanun qəbul olunub.

Ümumçin Xalq Nümayəndələri Yığıncağı Daimi Komitəsinin aylıq iclasının sonuncu günü - dekabrın 27-də qəbul edilmiş qanun ölkə daxilində antiterror fəaliyyətlərinin hüquqi bazası olmaqla yanaşı, dünyada təhlükəsizliyin təminatına kömək məqsədi daşıyır.

## İŞİD-in başçısı ABŞ, İsrail, Rusiya və Avropa ölkələrini hədələyib



Twitter-akkauntlarında İŞİD terrorçu qruplaşmasının başçısı Əbu Bəkr əl-Bağdadinin videomüraciəti yerləşdirilib. Bu barədə Reuters agentliyi məlumat yayıb.

Qruplaşmanın lideri ABŞ, İsrail, Rusiya və Avropa ölkələrinin - İŞİD-ə qarşı mübarizədə iştirak edənlərin hamısının ünvanına təhdidlər səsləndirib. Bağdadi iddia edir ki, endirilən zərbələr yaraqlılara nəinki xətər toxundurmayıb, əksinə, onların döyüş ruhunu yüksəldib.

Bu videomüraciət İŞİD liderinin son yeddi ayda ilk belə çıxışıdır. Yaz aylarında əl-Bağdadinin ABŞ hava qüvvələrinin aviazərbələri nəticəsində ağır yaralandığına dair məlumat yayılmışdı.

## Macarıstanı rekord sayda turistlər gözləyir



Təxmini hesablamalara görə, Budapeştdə Milad və Yeni il bayramlarını təqribən 250 min xarici turist qeyd edəcək. Onlar təkcə paytaxta deyil, həm də ölkənin başqa şəhərlərinə, habelə əyalətlərə səfər edirlər. Dekabr ayında ölkəyə təqribən 600 min adam gələcək.

Otellər qonaqlarını əyləndirməyə çalışır, onlara Macarıstanın ənənəvi Milad yeməklərini, məsələn, qulyaş və xalasle təklif edirlər. "HunTourism" informasiya agentliyinin məlumatına görə, Milad və Yeni il bayramlarında Macarıstana rekord sayda turist axını 2015-ci il trendinin davamıdır. İlin ilk doqquz ayı ərzində otellərə və pansionatlara 2014-cü ilin eyni dövrü ilə müqayisədə 8,5 faiz çox əcnəbi qonaq gəlib.

## Rusiya Hindistan üçün 6 nüvə stansiyası inşa edəcək



Rusiya qarşıdakı 20 ildə Hindistan üçün ən azı 6 nüvə stansiyası inşa edəcək.

Bu barədə razılıq Hindistanın Baş naziri Narendra Modinin Rusiya Prezidenti Vladimir Putinlə görüşündə əldə olunub. Stansiyaların inşasını Rusiyanın "Rosatom" şirkəti həyata keçirəcək.

## Dünya 2004-cü ildə baş verən sunaminin qurbanlarını anıb



Dekabrın 26-da dünya düz 11 il bundan əvvəl Hind okeanında baş verən faciəvi sualtı zəlzələ və nəhəng sunami qurbanlarının xatirəsini yad edib.

Təbii fəlakət nəticəsində həlak olanların yaxınları Tailandın sunaminin zərbəsindən tamamilə dağılmış Ban Nam Kxem kəndində yerləşən memorial parka yığışıb. Burada müxtəlif konfessiya üzvləri üçün dini ayinlər keçirilib.

Xatırladaq ki, 2004-cü il dekabrın 26-da Hind okeanında baş verən zəlzələ müasir tarixə ən dəhşətli təbii fəlakət kimi daxil olub. Zəlzələnin yaratdığı sunami təkcə Tailandın cənub kurortlarında 6 min insanın həyatına son qoymuşdu. Ümumilikdə isə hadisə nəticəsində 226 mindən çox insan həlak olmuş, on minlərlə insan itkin düşmüş, milyonlarla insan isə evsiz-eşiksiz qalmışdı.

## Bu il ABŞ-da törədilən silahlı hücumlar nəticəsində 13 min nəfər ölüb




2015-ci ildə ABŞ-da 51 mindən çox silahlı hücum hadisəsi qeydə alınıb. Bu hadisələr nəticəsində 13 minədək insan ölüb, 26 min nəfər isə yaralanıb. Həmin hücumlar zamanı 17 yaşadək 281 nəfər həlak olub, 2 min 989 nəfər isə yaralanıb.

Ötən dövrdə polis 4 min 256 silahlı hücuma müdaxilə edib və bunun nəticəsində 864 nəfərə atəş açıb.

Bu barədə qeyri-kommersiya təşkilatı olan "Gun Violence Archive"in məlumatında deyilir. Qurum 2013-ci ildən bu vaxtadək ABŞ-da törədilən silahlı hücumların federal təşkilatlardan əldə etdiyi məlumatlar əsasında statistikasını aparır. Təşkilatın məlumatına görə, 2014-cü ildə ABŞ-da 51 min 775 silahlı hücum törədilib, bu hadisələrdə 12 min 574 nəfər ölüb, 23 min 38-i isə yaralanıb.

## Koreyada xarici turistlər üçün vergi güzəşti tətbiq olunacaq



Koreya Respublikasının Strategiya və Maliyyə Nazirliyinin təklif etdiyi yeniliyə əsasən, 2016-cı il yanvarın 1-dən xarici turistlər ƏDV və fərdi istehlak vergisi kimi ödədikləri məbləğləri ölkə ərazisində rüsumsuz mallar satan yerli mağazalarda geri ala biləcəklər.

Hazırda isə ölkənin qonaqları rüsumsuz mağazalarda aldıqları malları və müvafiq qəbzi ölkədən çıxarkən gömrük orqanına təqdim etməlidirlər. Bu da kassaların qarşısında böyük növbələr, izafi vaxt itkisi yaradır.

## Kolima vulkanı püskürməyə başlayıb



Meksikadakı Kolima vulkanı püskürməyə başlayıb. Püskürmədən sonra havaya qalxan kül buludu iki kilometr yüksəklikdə geniş bir sahəni örtüb.

Meksikadakı 3 mindən çox vulkandan 14-ü aktiv vəziyyətdədir. Həmin aktiv vulkanlardan biri olan Kolimanın 2015-ci ilin əvvəlindən fəal olması gözlənirdi. Kolima sonuncu dəfə 1986-cı ildə püskürüb.

**AZƏRTAC-ın
materialları əsasında**

*Analitik şərh*

# Hərbi mövzuda yazan jurnalist məsuliyyət hissini artırmalıdır

***Azərbaycan müstəqilliyini qazandıqdan sonra demokratik mətbuatımız azadlıq dəyərlərinin təbliğatçısına çevrildi. 1993-cü ildən başlayaraq KİV-in inkişafında əldə olunmuş nailiyyətlər ümummilli lider Heydər Əliyevin bu sahəyə müstəsna diqqət və qayğısı nəticəsində gerçəkləşdi. Ulu öndərin bu sahənin maddi-texniki bazasının möhkəmləndirilməsi, sərbəst fəaliyyəti üçün əlverişli şərait yaradılması ilə bağlı həyata keçirdiyi ardıcıl, məqsədyönlü tədbirlər milli mətbuatımızın inkişafını şərtləndirən amillərdir. Jurnalistlərin dostu adını qazanmış dahi rəhbər, ölkəmizin müharibə şəraitində olmasına baxmayaraq böyük cəsarətlə əvvəlcə hərbi senzuranı, 1998-ci ilin avqustunda isə bütövlükdə KİV üzərində dövlət senzurasını ləğv etdi. Bu addım kütləvi informasiya vasitələrinin sürətli inkişafına ciddi təkan verdi.***

Ümummilli liderimizin siyasi kursunu uğurla davam etdirən Azərbaycan Prezidenti İlham Əliyev söz və mətbuat azadlıqlarının təminatını demokratikləşmə prosesinin vacib amili kimi dəyərləndirir. Hazırda ölkəmizdə mətbu nəşrlərin sərbəst fəaliyyətinə, jurnalistlərin öz iradələrini azad şəkildə ifadə etmələrinə tam şərait var. Ölkə Prezidentinin bu sahədə həyata keçirdiyi siyasət jurnalistlərə dövlət qayğısının təzahürüdür.

Bu gün Azərbaycan mətbuatı müasir informasiya cəmiyyəti quruculuğunda, sosial ədalət və şəffaflığın təmin edilməsində, milli həmrəyliyin, tolerantlığın möhkəmləndirilməsində, milli mənəvi dəyərlərin təbliğində mühüm rola malikdir. Təsadüfi deyildir ki, dövlətimizin rəhbəriliyi respublikada bütün sahələrdə, xüsusilə informasiya sahəsində hücum taktikası seçməsinin vacibliyini vurğulamış və təşəbbüsü əldə saxlamağın zəruriliyini, ölkənin gələcəyinin də məhz bu taktikanın hansı özüllər üzərində qurulmasından asılı olmasını bəyan edir.

Müasir dövrdə media nümayəndələri müharibə şəraitində yaşadığımızı unutmamalı, dövlətin milli maraqlarını bütün mənfəətdən üstün tutmalı, əsl vətəndaş mövqeyi nümayiş etdirməlidir. Keçən il avqustun əvvəllərində Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Ermənistan Respublikası silahlı qüvvələri ilə təmas xəttində düşmənin kəşfiyyat-diversiya qruplarının təxribat xarakterli hücumları nəticəsində yaranan gərginlik və bununla əlaqədar müharibə şəraitində olan ölkənin bəzi media qurumlarında ictimai fikri çaşdıran yalan, şişirdilmiş məlumatların təqdim edilməsi dövlətin informasiya təhlükəsizliyi sistemində təxirəsalınmaz tədbirlərin görülməsini reallaşdırdı.

Ölkənin müdafiə qabiliyyətinə xələl gətirən informasiyaların yayılmasına qarşı ciddi addımların atılması, mətbuatın məsuliyyət anlayışı daha da qabardıldı. Bu hadisələrdən sonra Prezident, Ali Baş Komandan İlham Əliyevin imzaladığı "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Ermənistan Respublikası silahlı qüvvələrinin təmas xəttində bəzi təhlükəsizlik tədbirləri haqqında" sərəncamı ölkənin informasiya təhlükəsizliyi sisteminin daha da təkmilləşdirilməsi üçün hüquqi bazanın yaranmasına zəmin oldu.

Bildiyimiz kimi, milli təhlükəsizlik və müdafiə mülahizələrinə görə xüsusi əhəmiyyət kəsb edən obyektlərin dislokasiyası, təyinatı, silahlı birləşmələrin strateji, operativ və səfərbərlik üzrə yerləşdirilməsi, hərbi hissələrin təşkilati strukturu, şəxsi heyətin sayı barədə məlumatlar və eləcə də "Dövlət sirri haqqında" Azərbaycan Respublikasının Qanunu ilə mühafizə olunan dövlət sirri təşkil edən məlumatların yayılması həmin qanunun 5-ci maddəsinə əsasən qadağandır. Hərbi sahədən material hazırlayan media nümayəndəsi birinci növbədə Müdafiə Nazirliyi ilə faktı dəqiqləşdirməli və toplanmış faktlara həssaslıqla yanaşmalıdır.

Canlı itkilərin sayının şişirdilməsi, hətta həlak olanların adları aydınlaşmadan xəbərin yayılması yolverilməzdir. Təcrübə göstərir ki, belə hallar cəmiyyətdə çaşqınlıq yaradır. Bundan başqa, hərbi texnikanın bort nömrələrinin görüntüsü, onların hərəkət istiqamətlərinin çəkilişi, o cümlədən, hərbi hissənin təşkilati strukturunun və şəxsi heyətinin sayının açıqlanması məsələləri məxfiliklə qriflənir. Komandir heyətinin rütbəsi, adı, soyadı barədə məlumatların verilməsi qadağandır. Məxfiliyin qorunması həmin şəxslərin təhlükəsizliyinə təminat verən amillərdən sayılır.

Müdafiə naziri general-polkovnik Zakir Həsənovun 29 oktyabr 2015-ci il tarixdə imzaladığı "Kütləvi informasiya vasitələri nümayəndələrinin cəbhəboyu zonada fəaliyyətinin tənzimlənməsi" haqqında əmrində nəzərdə tutulan əsas məsələlər ölkə Prezidentinin məlum sərəncamından irəli gələn məsələləri özündə əks etdirir. Müdafiə Nazirliyi ilə "Dinc Dünya Araşdırmaları Mərkəzi"nin "Ekstremal şəraitdə fəaliyyət göstərən jurnalistlərin psixoloji hazırlanması və təcrübi bilgiləndirilməsi" adlı birgə layihənin həyata keçirilməsi sıradan atılan məqsədəuyğun addımlardandır.

"Dinc Dünya" Araşdırma Mərkəzinin təşəbbüsü, Azərbaycan Respublikasının Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurasının maliyyə yardımı, Müdafiə Nazirliyinin, Mətbuat Şurasının və Bakı Dövlət Universiteti jurnalistika fakültəsinin təşkilati dəstəyi ilə "Ekstremal situasiyalarda işləyən jurnalistlərin psixoloji və təcrübi öyrədilməsi" layihəsinin gerçəkləşməsi mühüm bir missiyanın həyata keçirilməsinə kömək edir. Bir aylıq təlimlərdə hərbi mövzuda yazan jurnalistlərə nəzəri-təcrübi biliklər aşılandı.

Bu yaxınlarda Azərbaycan Prezidenti İlham Əliyevin "Kütləvi informasiya vasitələri haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə sərəncamı da mətbuatın cəmiyyətdə rolunun və məsuliyyətinin daha da artırılması istiqamətində mühüm addımdır.

Həmin qanunun tətbiqilə bağlı qərara alınıb ki, yalan və şayiələr üzərində öz fəaliyyətini quran KİV-lər ciddi cəzalandırılacaqlar. Milli Məclisin bu il oktyabrın 20-də keçirilmiş plenar iclasında da "Kütləvi informasiya vasitələri haqqında" Qanuna dəyişiklik edilməsi barədə qərar qəbul edilib. Qanunun 44-cü maddəsinə edilən dəyişiklikdə göstərilir ki, kütləvi informasiya vasitəsində cinayət işləri üzrə ibtidai araşdırmanın mahiyyəti və nəticələri barədə həqiqətə uyğun olmayan və ya təhrif edilmiş məlumatlar verildikdə, ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən və ya ibtidai araşdırmanı aparan orqan məlumatın təkzib olunması və ya düzəliş verilməsi tələbilə müraciət etmək hüququna malikdir.

"KİV haqqında Qanun"a dəyişiklik zərurətdən yaranıb. Həm də media nümayəndələrinin peşəkarlıq səviyyələrinin yüksəlməsinə, informasiya hazırlayan zaman daha məsuliyyətli və diqqətli olmalarına istiqamətlənib.

Bütün bunlar bir daha təsdiqləyir ki, Azərbaycan dövləti ölkədə söz və mətbuat azadlığının təminatçısıdır.

**Lalə HÜSEYNOVA,**
**"Azərbaycan Ordusu"**

# Unutmayaq!

***1988-1994-cü illərdə Azərbaycanın bu torpaqları ermənilər tərəfindən işğal edilmişdir:***

***Dağlıq Qarabağ*** *(Şuşa, Xankəndi, Xocalı, Əsgəran, Xocavənd, Ağdərə, Hadrut), işğal tarixi - 1988-1994-cü illər. Sahəsi: 4400 kv.km.*
***Şərur rayonunun Kərki və Cünnüt kəndləri*** *(17 fevral 1990) - 19 kv.km.*
***Laçın*** *(17 may 1992-ci il) - 1835 kv.km.*
***Kəlbəcər*** *(3-4 aprel 1993-cü il) - 1936 kv.km.*
***Ağdam*** *(23 iyul 1993-cü il) - 1094 kv.km.*
***Cəbrayıl*** *(18 avqust 1993-cü il) - 1059 kv.km.*
***Füzuli*** *(23 avqust 1993-cü il) - 1386 kv.km.*
***Qubadlı*** *(31 avqust 1993-cü il) - 802 kv.km.*
***Zəngilan*** *(30 oktyabr 1993-cü il) - 707 kv.km.*

**Bu torpaqları azad etmək bizim müqəddəs borcumuzdur!**

# “Hər kəs milli birliyimizin möhkəmlənməsinə kömək etməlidir”



***Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü Azərbaycan millətinin birliyini əks etdirən simvolik gündür. Bu bayram dünyanın 70-dən çox ölkəsində yaşayan 50 milyondan artıq azərbaycanlılar arasında birlik və həmrəylik yaratmaq işində mühüm rol oynayır. Bu tarixi günün bayram səviyyəsində qeyd edilməsi dünya azərbaycanlıları tərəfindən bir zərurətə və mənəvi ehtiyaca çevrilib.***

Bu günlər ölkəmizin hər yerində xalqımızın müstəqillik tarixinin ən əlamətdar hadisələrindən biri olan Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni ilin gəlişi təntənəli surətdə qeyd olunur. Müdafiə Nazirliyinin Təlim və Tədris Mərkəzi və Cəmşid Naxçıvanski adına Hərbi Lisey də bu əlamətdar günlərlə bağlı birgə təntənəli mərasim keçirib. Tədbirdə hər iki qurumun şəxsi heyəti iştirak edib.

Öncə ümummilli liderimiz Heydər Əliyevin və Vətənimizin azadlığı uğrunda şəhid olanların xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Dövlət himni oxunub.

Tədbiri açıq elan edən Cəmşid Naxçıvanski adına Hərbi Lisey rəisinin şəxsi heyətlə iş üzrə muavini polkovnik Rəhim Səmədov iştirakçıları salamlayaraq Azərbaycan xalqının tarixində ən yaddaqalan, ən şərəfli günlərdən biri olan 31 Dekabr - Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü haqqında ətraflı məlumat verib. O bildirib ki, bu günün əsası 1989-cu ildə Azərbaycanın Naxçıvan Muxtar Respublikası ilə İranın Azərbaycan sərhədinin (SSRİ-İran sərhədinin) dağıdılması ilə qoyulub. "Uzun zaman bir-birinə həsrət qalan Azərbaycan millətinin Arazın hər iki sahilində sərhəd yürüşü - Şimali və Cənubi Azərbaycan arasındakı sərhəd dirəklərini yıxması, o taylı bu taylı millətin həftələrlə Araz qırağında gecə-gündüz birləşmək şüarı əslində azərbaycanlıların bir millət olduğuna həmrəylik cəhdi idi".



Natiq çıxışında vurğulayıb ki, dünya azərbaycanlılarının birliyi, soydaşlarımızın həmrəyliyi ideyasının həyata keçirilməsi ümummilli lider Heydər Əliyevin xalqımız və Vətənimiz qarşısında tarixi xidmətlərindən biridir. "Məhz ümummilli lider Heydər Əliyevin təşəbbüsü ilə Naxçıvan Muxtar Respublikasının Ali Məclisi "Dünya Azərbaycanlılarının Həmrəyliyi və Birlik Günü haqqında" 1991-ci il 16 dekabr tarixli qərarı ilə dekabrın 31-ni Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü elan etmişdir. Sonra bu bayramın bütün ölkədə qeyd olunması üçün Azərbaycan Respublikasının Ali Soveti də qərar qəbul etmişdir".

Daha sonra polkovnik qeyd edib ki, 2001-ci il noyabrın 9-10-da Bakıda keçirilən Dünya Azərbaycanlılarının I Qurultayı milli həmrəyliyimizin ən yüksək zirvəsi oldu. "O, ulu öndərin həmin qurultaydakı çıxışından misal gətirdi. "Bizim hamımızı birləşdirən, həmrəy edən Azərbaycançılıq ideyasıdır, Azərbaycançılıqdır. Biz həmişə bu ideya ətrafında birləşməliyik. Azərbaycançılıq öz milli mənsubiyyətini qoruyub saxlamaq, milli-mənəvi dəyərləri qoruyub saxlamaq, eyni zamanda onların ümumbəşəri dəyərlərlə sintezindən, inteqrasiyasından bəhrələnmək və hər bir insanın inkişafının təmin olunması deməkdir".

Polkovnikin sözlərinə görə, ulu öndər Heydər Əliyevin milli birlik və azərbaycançılıq ideyaları bu gün Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyev tərəfindən uğurla davam etdirilir. "Dövlətimizin başçısı dünya azərbaycanlılarının həmrəyliyinə verdiyi töhfələrlə, ölkə hüdudlarından kənarda yaşayan soydaşlarımızda milli ruhun yüksəldilməsinə çalışmaqla, bu sahədə məqsədyönlü fəaliyyətin ideoloji-siyasi konturlarını müəyyənləşdirməklə və milli birliyə xidmət edən qətiyyətli addımları ilə bütün dünya azərbaycanlılarının dərin rəğbətini qazanmışdır".

Polkovnik Rəhim Səmədov çıxışının sonunda bir daha tədbir iştirakçılarını Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il münasibəti ilə təbrik edərək hər kəsə 2016-cı ildə dövlətimizin ətrafında daha sıx birləşməyi, qələbə sevinci yaşamağı arzulayıb.

Sonda tədbir iştirakçılarına istedadlı xanəndə Firuz Səxavətin və başqa müğənnilərin ifasında musiqi nömrələri təqdim edilib.



**Leytenant**
**Günay TAĞIYEVA,**
**"Azərbaycan Ordusu",**
**fotolar**
**çavuş**
**N.PƏNAHOVUNDUR**

# İdman

## Taekvondo üzrə Azərbaycan çempionatına yekun vurulub



"Sərhədçi" Olimpiya İdman Mərkəzində böyüklər arasında taekvondo üzrə Azərbaycan çempionatı başa çatıb. Yarışın üçüncü günündə kişilərin 2, qadınların mübarizəsində isə 3 çəki dərəcəsində qaliblər müəyyənləşib.

Azərbaycan Taekvondo Federasiyasının (ATF), Gənclər və İdman Nazirliyinin birgə təşkil etdiyi yarışın son günündə kişilərin mübarizəsində Zəlimxan Rəşidov (58 kq), Ceyhun Həsənli (87 kq), qadınlar arasında isə Gülhanım Yeşildal (53 kq), Günay Ağakişiyeva (62 kq) və Elnarə Cəlilova (73 kq) fəxri kürsünün ən yüksək pilləsinə qalxıblar.

Çempionatda komanda hesabında "Neftçi", "Gilan" və "Sumqayıt" klubları ilk üç yerə layiq görülüb.

## “Azəryol” və “Muşina” klubları arasında keçiriləcək oyunların tarixi müəyyənləşib

Bakının qadınlardan ibarət "Azəryol" klubunun Avropa Voleybol Konfederasiyası (CEV) kuboku yarışlarının dörddəbir final mərhələsindəki oyunlarının tarixi müəyyənləşib. Bakı təmsilçisi yanvarın 19-da Polşada "Muşina" komandasının qonağı olacaq. Komandalar arasında cavab oyunu yanvarın 27-də Azərbaycan Voleybol Mərkəzində təşkil olunacaq.

Qeyd edək ki, turnirdə mübarizəyə onaltıdabir final mərhələsindən qoşulan "Azəryol" Rumıniyanın "Tarqoviste" və Finlandiyanın "Salo" klublarını yarışdan kənarlaşdırıb.

## Güləş üzrə Azərbaycan çempionatının ikinci günündə qaliblər müəyyənləşib



Bakı İdman Sarayında böyüklər arasında güləş üzrə Azərbaycan çempionatı davam edir.

Yarışın ikinci günündə 86, 97, 125 kiloqram çəki dərəcələrində sərbəst, 59, 66 və 71 kiloqram çəki dərəcələrində yunan-Roma güləşi üzrə 142 güləşçi mübarizə aparıb.

Sərbəst güləş yarışlarında Aleksandr Qostiyev (86 kq), Şərif Şərifov (97 kq) və Cəmaləddin Məhəmmədov (125 kq) bütün rəqiblərindən üstün olaraq Azərbaycan çempionu adına layiq görülüblər.

Yunan-Roma güləşi yarışlarında isə Taleh Məmmədov (59 kq), Kamran Məmmədov (66 kq) və Həsən Əliyev (71 kq) fəxri kürsünün ən yüksək pilləsində qərarlaşaraq çempionatın qızıl medalına sahib olublar.

Hər çəki dərəcəsi üzrə ilk üç yeri tutacaq güləşçilər yığma komandanın heyətinə cəlb ediləcək, müvafiq diplom, medal, pul mükafatı və dəst idman geyimi ilə mükafatlandırılacaqlar.

## Bakının “İnter” komandası Qazaxıstan klubu ilə qarşılaşacaq

Türkiyədə hazırlıq keçəcək Bakının "İnter" klubunun daha bir rəqibi bəlli olub.

Yanvarın 5-də Antalyaya yollanacaq "İnter" əvvəlcə ayın 13-də Almaniyanın "Verder" klubunun 23 yaşadək komandası ilə qüvvəsini sınayacaq. Həmin ayın 23-də isə "İnter" Qazaxıstanın "Atırau" klubu ilə qarşılaşacaq.

## Azərbaycan şahmatçısı “Qatar Masters Open-2015” beynəlxalq turnirinə liderlik edir



"Qatar Masters Open-2015" beynəlxalq şahmat turnirinin başa çatmasına 2 tur qalıb.

7-ci turda Hindistan təmsilçisi Şekhar Suriya Ganguli üzərində qələbəsindən sonra Şəhriyar Məmmədyarov aktivinə 5,5 xal yazaraq turnirə liderlik edir. Səkkizinci turda isə həmyerlimizin rəqibi hazırki dünya çempionu Maqnus Karlsen olacaq. Turnirdə Ş.Məmmədyarov ilə yanaşı, Vladimir Kramnik, Aniş Qiri, Vesli So, Sergey Karyakin, Yevgeni Tomaşevski və bir sıra digər tanınmış şahmatçılar iştirak edirlər.

Yarış İsveçrə sistemi ilə 9 turdan ibarət keçirilir.

**AZƏRTAC-ın**
**materialları əsasında**

# Ermənistanın Azərbaycana hərbi təcavüzü dünyada sülhə, sabitliyə təhdiddir

Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurası (TDƏŞ) Ağsaqqallar Şurasının İstanbulda keçirilən X toplantısında Türkiyə Böyük Millət Məclisinin deputatı Mustafa İsen Azərbaycan ərazisinin 20 faizinin Ermənistan silahlı qüvvələrinin işğalı altında qalmasının yolverilməz olduğunu bildirib. O, Ermənistanın işğalçılıq siyasətinin beynəlxalq hüququn prinsiplərinə zidd olduğunu vurğulayıb.

Azərbaycan Ağsaqqallar Şurasının sədri, Milli Məclisin deputatı Fəttah Heydərov çıxışında Azərbaycan torpaqlarının 20 faizinin Ermənistan tərəfindən işğal edilməsi nəticəsində bir milyondan çox insanın qaçqın və məcburi köçkün vəziyyətinə düşdüyünü diqqətə çatdırıb. Bildirib ki, Azərbaycan münaqişənin sülh yolu ilə və beynəlxalq hüququn normaları çərçivəsində həllinə çalışsa da, Ermənistan beynəlxalq hüququn normalarına məhəl qoymur.

Çıxışlarda vurğulanıb ki, Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü dünyada sülhə, sabitliyə və ümumi inkişafa təhdiddir.

# Xarici hərbi xronika

## Rusiya 2025-ci ilə qədər kiber ordu yaratmaq niyyətindədir

Müasir dövrdə yeni imkanlara malik olan elekton texnikalar meydana çıxır. Rusiya Federasiyasının Müdafiə Nazirliyi "kiber müharibə"nin aparılması üzrə yeni texnologiya üzərində işləyir. Nazirliyin proqramçıları "kiber hücumlara qarşı" yeni proqram üzərində fəal iş aparırlar. Rusiyanın ən yeni "Milli İdarəetmə Mərkəzinin İnformasiya Kompleksi" ölkəni "kiber müharibə"dən müdafiə edəcək. Elmi Tədqiqat üzrə Baş İdarənin rəis əvəzi polkovnik Kordyukov "2025-ci ilə qədər hərbi robot texnikasının yaradılması" proqramı haqqında məlumat verib. Bildirib ki, Rusiya istehsalçıları tərəfindən əməliyyatlar gedən ərazilərdən minaların təmizlənməsi, yanğınların söndürülməsi üçün robotlar hazırlanır və onlardan geniş istifadə edilir. Bu işlərin görülməsində əsas məqsəd xarici dövlətlərlə rəqabəti artırmaqdır.

## Gözdən itən pilotsuz uçan aparatlar

Pentaqonun tədqiqat işləri üzrə müdafiə agentliyi xüsusi əməliyyat qivvələri üçün "gözdən itən" pilotsuz uçan aparatların istehsalına hazırlaşır. Bu iş üzrə layihə İCARUS adını alıb. Yeni qurğu 1.4 kiloqramlıq yükü GPS peyk sisteminin köməyi ilə lazımi nöqtəyə çatdıracaq. O hərbçilərə yükü çatdırandan sonra bort sistemi və detallar da daxil olmaqla fiziki olaraq yoxa çıxmalıdır. Aparatlar 150 kilometrlik məsafəyə və 10.7 kilometrlik hündürlüyə qədər uçuşu yerinə yetirə biləcəklər.

## Döyüş robot-tank şəbəkəsi yaradılacaq

Rusiyanın "Ural-vaqon" zavodu döyüş robot-tank şəbəkəsi yaradacaq. Məqsəd bu döyüş maşını əsasında bir neçə robotlaşdırılmış tankın vahid şəbəkəyə qoşulmasını həyata keçirməkdir. Bu haqda direktor müavini Vyaçeslav Xalitov məlumat verib. O döyüş texnikasının idarə edilməsinin təkmilləşdiriləcəyini bildirib. V.Xalitov T-90 maşınlarının robotlaşdırılmasında heç bir problemin olmadığını da qeyd edib. Operatortankı 3-5 kilometrlik məsafədən idarə edə biləcək.

**Hazırladı:**
**Svetlana YUSUBOVA,**
**"Azərbaycan Ordusu"**

Gizir Məhərrəmli Asəf Faniz oğluna 2014-cü ildə verilmiş şəxsi vəsiqə itdiyi üçün etibarsız sayılır.

---

Həmzəyeva Vüsalə Nizami qızına Müdafiə Nazirliyi tərəfindən 2015-ci il dekabrın 7-də verilmiş vəsiqə itdiyi üçün etibarsız sayılır.

**Məsul katib**
polkovnik-leytenant
İlham BEHBUDOV

**Telefonlar**
Baş redaktor: (012) 510-71-97 (faks);
Baş redaktorun müavini: (012) 510-64-27;
Məsul katib: (012) 510-71-98
Məktublar şöbəsi: (012) 510-64-28;

**Ünvanımız**
Bakı şəhəri, akademik
Şəfaət Mehdiyev küçəsi 144,
“Qızıl Şərq” hərbi şəhərciyi

**Növbətçi**
mayor
Vahid MƏHƏRRƏMOV

**Qəzetin hesabı**
Nərimanov Rayon Xəzinədarlığı
Kod: 200189
VÖEN: 1500428611

Qəzet həftədə iki dəfə (III-VI günlər) nəşr olunur. “Azərbaycan Ordusu” qəzeti kompüter mərkəzində səhifələnərək “Hərbi nəşriyyat”ın mətbəəsində hazır diapozitivlərdən çap olunur. Əlyazmalara rəy verilmir, təqdim edilən yazılar müəllifə qaytarılmır.

Lisenziya № 361
Sifariş № 1012
Nüsxə 4710